**UOT 372.894 (Az)**

***Turanə Fazil qızı İsmayılova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*https://orcid.org//0000-0001-6462-7759*

# ALİ MƏKTƏBLƏRDƏ AZƏRBAYCAN TARİXİNİN TƏDRİSİNDƏ TƏLƏBƏLƏRİN İDRAK FƏALLIĞININ İNKİŞAF ETDİRİLMƏSİNDƏ İNTERAKTİV TƏLİM METODLARLARINDAN İSTİFADƏ YOLLARI

***Турана Фазиль гызы Исмайлова***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики,*

# ПУТИ ИСПОЛЬЗОВАНИЯ ИНТЕРАКТИВНЫХ МЕТОДОВ ОБУЧЕНИЯ В РАЗВИТИИ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ СТУДЕНТОВ ПРИ ПРЕПОДАВАНИИ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ВУЗАХ

***Turana Fazil Ismayilova***
*doctorial student in the program of doctor of philosophy*
*İnstitute of Education of the Republic of Azerbaijan*

# WAYS TO USE INTERACTIVE TEACHING METHODS IN THE DEVELOPMENT OF STUDENTS' COGNITIVE ACTIVITY IN THE TEACHING OF AZERBAIJANI HISTORY IN UNIVERSITIES

**Xülasə.** Elmi araşdırmalar və təcrübə göstərir ki, Azərbaycan tarixi dərslərinin interaktiv metodlarla tədrisində idrak fəallığının inkişafının nəzərə alınması tələbələrin akademik mühitdə və gündəlik həyatda uğur qazanmasına təkan verir. Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəaliyyətinin inkişafının nəzərə alınması ona görə vacibdir ki, tələblərin akademik mühitdə təlimin məzmununun mənimsənilməsində mühüm vasitə rolunu oynayır. Tədris olunacaq materialın məzmununu müəyyənləşdirərkən onun perspektivliyi, materialın praktikliyi və tələbələr üçün vacibliyi, keyfiyyətliliyi, aktuallığı nəzərə alınmalıdır.
***Açar sözlər:*** *Umummilli lider Heydər Əliyev, Azərbaycan tarixinin tədrisi, ali məktəb, interaktiv təlim metodları, idrak fəaliyyəti*

**Резюме.** Научные исследования и опыт показывают, что учет развития познавательной активности при преподавании уроков истории Азербайджана с использованием интерактивных методов дает учащимся стимул к успеху в учебной среде и в повседневной жизни. При обучении истории Азербайджана важно учитывать развитие познавательной активности учащихся, так как требования играют важную роль в усвоении содержания обучения в академической среде. При определении содержания изучаемого материала следует учитывать его перспективность, практичность материала и его важность для учащихся, качество, актуальность.
***Ключевые слова:*** *общенациональный лидер Гейдар Алиев, преподавание истории Азербайджана, университет, интерактивные методы обучения, познавательная активность*

**Summary.** Scientific research and experience show that taking into account the development of cognitive activity in the teaching of Azerbaijani history lessons with interactive methods gives students an impetus to succeed in the academic environment and in everyday life. It is important to take into account the development of students' cognitive activity in the teaching of Azerbaijani history, because the requirements play an important role in mastering the content of training in an academic environment. When determining

the content of the material to be taught, its perspective, practicality of the material and its importance for students, quality, relevance should be taken into account.

***Key words:*** *National lider Heydar Aliyev, teaching the history of Azerbaijan, high school, interactiv teaching methods, cognitive activity*

Ali məktəblərdə Azərbaycan tarixi dərslərininin tədrisində təhsilalanların idrak fəallığının yüksəldilməsində interaktiv təlim metodlarından istifadə mühüm əhəmiyyət kəsb edir. Tələbələrin biliyə tələbatının formalaşmasında, peşəkar fəaliyyət bacarıqlarının mənimsənilməsində, təfəkkür müstəqilliyinin əldə olunmasında, əldə olunan biliyin dərinliyində və onun möhkəmləndirilməsində tələbələrin idrak fəallığının rolu böyükdür. Tələbənin idrak fəaliyyəti mexanizminin işə düşməsində təlim prosesi vacib rola malikdir. Bu isə ilk növbədə, tələbələrin tədqiqatçılıq və müəllimin pedaqoji ustalıq qabiliyyətindən asılıdır. Bunun üçün tələbələrin qarşısında problem canlandırmaq, fərziyyələr irəli sürmək, onları bu işin müdafiəsinə sövq etmək, gerçəkliyin meyarları kimi praktikada canlandırmaq, bilikləri yeni və qeyri-adi vəziyyətlərdə tətbiq etmək lazımıdır. Bu isə müəllimdən dərin bilik, bacarıq, yaradıcılıq tələb edir. Tələbələrdə idrak fəallığını inkişaf etdirmək üçün, ilk növbədə, yaradıcı təfəkkürün elementlərinin inkişafına təkan vermək lazımdır.

Psixologiyada fəaliyyət "bir insanın maddi və mənəvi mədəniyyət sərvətlərinin mənimsənilməsinə əsaslanaraq, yaradıcılıqda, iradi hərəkətlərdə, ünsiyyətdə təzahür edən dünyada sosial əhəmiyyətli dəyişikliklər yaratmaq qabiliyyəti ..." kimi başa düşülür [ 4, s.15 ].

Tələbələrin idrak fəaliyyəti onların idrak fəaliyyətinə münasibətində özünü göstərir. Bundan əlavə, fəaliyyət təlim prosesinin ən vacib nəticələrindən biri kimi çıxış edir, həm də bir növ "işəsalma mövqeyini" ifadə edir.

Müstəqil Azərbaycanın Konstitusiyası əsasında formalaşan milli ideologiyamızın əsasında müasir tarix təhsilinin qarşısında dayanan əsas məsələ milli ideologiyalı, milli təfəkkürlü, milli özünüdərk xüsusiyyətlərinə cavabdehliyi bacaran vətəndaşlar formalaşdırmaqdır. Bu sahədəki uğurlarımızın bünövrəsində ümummilli liderimiz H. Əliyevin qayğısı, diqqəti və məhəbbəti dayanır. Ümummilli liderimiz Heydər Əliyev tariximizin öyrənilməsinə xüsusi diqqət verərək göstərirdi ki, gərək biz tariximizi heç vaxt unutmayaq, onun hər bir səhifəsinə hörmətlə, ehtiramla yanaşaq.

Dövlətimizin ali təhsilə qayğısı nəticəsində müasir ali təhsil müəssisələri yeni elmi-metodik təfəkkürə əsaslanır. Müəllimin bələdçi roluna xüsusi əhəmiyyət verildiyi bir dövrdə ali məktəblərdə Azərbaycan tarixinin interaktiv metodlarla tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsi xüsusilə önəmlidir. Ali təhsil müəssisələrində ən vacib məsələlərdən biri tələbə şəxsiyyətinin formalaşdırılmasıdır [ 2, s.101].

Məqsədimiz ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrin idrak fəallığının inkişaf etdirilməsinin yollarını müəyyənləşdirmək, interaktiv metodların idrak və tədris fəaliyyəti arasında olan vəhdətinin müsbət xüsusiyyətlərini tədqiq etmək və onlardan səmərəli sürətdə istifadə etməkdir.

Ali təhsilin məqsədi yalnız tələbəni savadlı etmək deyil. Müstəqil düşüncə və müdriklik kimi yüksək hədəflər, hər zaman olduğu kimi, keyfiyyətli təhsilin həlledici vəzifələridir. Tələbələrdə idrak fəallığının formalaşdırılması hansı metodlarla həyata keçirilə bilər? Metod anlayışı ədəbiyyatda necə şərh olunur?

Metodologiya 2500 ildən artıq bir müddətdə fəlsəfi elm kimi tanınır və bu sahədə heç bir mübahisə yoxdur. Məşhur ingilis filosofu F. Bekonun (XVII əsr) demişdir: "Metod yolçunun yolunu işıqlandıran bir mayakdır. Düzgün metodla silahlanmayan alim, qaranlıqda dolaşıb fəhmlə özünə yol axtaran yolçuya bənzər". Müəllimin tələbələri bilik, bacarıq və vərdişlərlə silahlandırması və tələbələrin bunlara yiyələnməsi yolları və vasitələrinə təlimin metodları deyilir. Dərk olunan qanunauyğunluqlar metodun obyektiv amilləri sayılır. Bu qanunauyğunluqlar əsasında pedaqoji gerçəkliyin mənimsənilməsi və qarşıya qoyulmuş məqsəd və vəzifələrin həyata keçirilməsi isə onun subyektiv amilləridir. Fəlsəfi ədəbiyyatda metodikaya belə tərif verilir: metodika faktiki materialların konkret alınması, tədqiq və təhlil edilməsi yolları metodları haqqında təlimdir. Başqa sözlə desək, metod təlim prosesində müəllim və tələbələrin məqsədə yönəlmiş qarşılıqlı fəaliyyət üsullarıdır. Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində təlimin müvəffəqiyyəti, ilk növbədə, təlim

zamanı istifadə olunan metodlardan asılıdır. Təlimin metodları – öyrədən və öyrənənlərin ümumi məqsədlərə yönəldilən birgə fəaliyyət üsullarına deyilir. Təlim metodları çoxdur. Onların təsnifatında vahidlik yoxdur. Metod anlayışına müxtəlif ədəbiyyatlarda müxtəlif təriflər verilib. Çoxsaylı ədəbiyyatlarda çoxsaylı təriflərin verilməsinə baxmayaraq, mahiyyət etibarı ilə, demək olar ki, eynidir. Məsələn, nümunə üçün professor A. N.Abbasovun verdiyi tərifə diqqət yetirək: "Metod (yun: *methodo*s-gerçəkliyə, gözlənilən nəticəyə doğru yol, tərz) məqsədə çatmaq, pedaqoji gerçəkliyi dərk etmək, bu və ya digər pedaqoji vəzifəni həyata keçirmək üçün istifadə olunan priyomların, nəzəri və fəaliyyəti nizamlayan prinsip və qaydaların məcmusu. Dərk olunan qanunauyğunluqlar – metodun obyektiv amilləri; həmin qanunauyğunluqlara əsaslanaraq pedaqoji gerçəkliyin öyrənilməsi və qarşıda dayanan pedaqoji vəzifələrin həyata keçirilməsi, priyom və vasitələri isə onun subyektiv amilləridir" [1, s.11]

Məqalə Ali məktəblərdə tarixin tədrisi metodikası və metodologiyası sahəsi üzrə olduğu üçün metodologiyanın məqsədinə, məzmununa və funksiyasına nəzər salmaq məqsədəmüvafiqdir. Pedaqoji ədəbiyyatda bu barədə deyilir: "Elmin metodologiyası tədqiqatın komponentlərinin xarakteristikasını verir. Həmin komponentlər aşağıdakılardır: tədqiqatın predmeti, vəzifələri, metodları, vasitələri və fəaliyyətin ardıcıllığı mexanizmi. Pedaqogikada metodologiyaya pedaqoji gerçəkliyin, yeni pedaqoji fakt, hadisə və proseslərin dərk edilməsi və dəyişdirilməsi haqqında nəzəri müddəaların məcmusu kimi baxılır. Hər hansı metodologiya tənzimləyici və normativ funksiyalar yerinə yetirir" [3 , s. 29].

Araşdırmalarımızdan müəyyən olur ki, metodoloji biliklərin strukturu üç səviyyədə mövqe tutur. Birincisi, fəlsəfi səviyyə (ümumi elmi səviyyə), ikincisi konkret elmi səviyyə, sonuncu isə texnoloji səviyyə kimi xarakterizə olunur.

Birinci səviyyədə metodoloji funksiyasını bütün fəlsəfi biliklər sistemi yerinə yetirir. Onlar idrakın ümumi prinsiplərini və bütünlükdə elmin kateqorial quruluşunu – anlayış terminologiyası aparatını təşkil edir.

İkinci səviyyəni (konkret elmi səviyyə) bu və ya digər xüsusi fənlər üzrə tədqiqat və prosedurlarda tətbiq olunan prinsiplərin, metodların məcmusu təşkil edir.

Üçüncü səviyyəni – texnoloji səviyyə tədqiqatın metodikası və texnikası təşkil edir. Buraya düzgün empirik materialın alınmasına və onun ilkin təhlilinə imkan verən prosedurlar daxildir.

Mürəkkəb sistem metodologiyanın səviyyələri arasında müəyyən asılılıq mövcuddur. Bu zaman fəlsəfi səviyyə metodoloji əsas kimi çıxış edir, varlığın dərk olunması və dəyişdirilməsi prosesində dünyagörüşü rolunu oynayır. Belə ki, dialektik materializm təbiətin, cəmiyyətin və təfəkkürün hərəkəti və inkişafı ilə bağlı ən ümumi qanunlar haqqında təlimdir. Onun əsas müddəaları aşağıdakılardır: materiya birinci, şüur isə ikincidir; şüur materiyanın (insan beyninin) inkişafı nəticəsində meydana gəlmişdir və onun məhsuludur (materialist monizm prinsipi); obeyktiv aləmin hadisələri və şüur qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqdadırlar (determinizm prinsipi); bütün predmet və hadisələr hərəkətdir, inkişaf edir və dəyişir (inkişaf prinsipləri). Məlum olduğu kimi, dialektika təbiət, cəmiyyət və təfəkkürün ən ümumi inkişafı haqqında elmdir.

Pedaqogika və tarixin tədrisi metodikasına dair ədəbiyyatlarda ümumi şəkildə qeyd olunur ki, mürəkkəb sosial proses olan mütəşəkkil təhsil-tərbiyə şəxsiyyətin inkişafında aparıcı rol oynayır. Təhsil-tərbiyə, eləcə də tarixin tədrisi metodikasının nəzəriyyəsinin işlənib hazırlanmasına müasir yanaşmanı aşağıda sadalanan müddəalar müəyyən edir:

1. Təhsil-tərbiyənin digər ictimai hadisələr kimi sosial xarakter daşıması, cəmiyyətin inkişaf ənənələrini, eləcə də millətlərin və xalqların milli xüsusiyyətlərini əks etdirməsi;
2. İnsanın şəxsiyyət kimi inkişafının mənbələrinin vəhdətdə olması;
3. Şəxsiyyətin inkişafında və formalaşmasında insanın özünün fəal rol oynaması;
4. Cəmiyyətdə sosial və mənəvi münasibətlərin insanın təkmilləşməsində və inkişafında mühüm rol oynaması;
5. Tarixin tədrisi metodikası və metodologiyasına pedaqoji varlığın dərk olunması, yəni tarixin tədrisi metodlarının, üsullarının və vasitələrinin dərk edilməsi və dəyişdirilməsi haqqında yuxarıda sadalanan nəzəri müddəaların məcmusu kimi baxmaq lazımdır.

Beləliklə, bu gün əsas vəzifə tələbələrin müstəqil düşüncə tərzini inkişaf etdirməkdir. Təhsil müəssisəsi müasir innovativ texnoloji

modellərin geniş spektrində naviqasiya etməlidir. İnnovativ texnologiya əsasında məqsədyönlü təşkil olunmuş təlim tələbələrdə idrak fəaliyyətinin, özünəinamın, yaradıcılığın, məhsuldar təfəkkürün inkişafına kömək edir ki, bu da inkişaf etmiş sənaye cəmiyyətində olduqca populyardır. Bu gün müasir təhsil texnologiyası müəllimin təkcə dərsi deyil, həm də fəal təlim metodlarının mümkün tətbiqi üçün xüsusi pedaqoji mühit yaratmaq bacarığına diqqət yetirir [9 s.-127-130].

Tədris materialının mənimsənilməsi prosesində fəal təfəkkür və praktiki fəaliyyətə təkan verən bu üsulları aktiv təlim metodları adlandırırlar. Onlar tələbələrə idarəolunan ünsiyyətə təhrik etməyi, real hadisələrlə məşğul olmağı təklif edirlər. Bu, tələbələrin müxtəlif səviyyələrdə informasiya probleminin həllinə daxil edilmiş fərqli miqyasda düşünməyə sövq edilmiş şərait yaradır. Fəal metodlar problemin başa düşülməsinə nail olmaq üçün dəstəkləyici təlim mühiti yaratmağa yardım edir [6, s.45-51]

Müəllimin müxtəlif fəal təlim metodlarından səriştəli istifadəsi təlim prosesinin öyrənilməsinin təkcə maraqlı deyil, həm də tələbələr və müəllimlər üçün də tədrisin daha təsirli və effektiv olmasına təsir edir. Həmçinin, koqnitiv fəaliyyətin səviyyəsini artırır, bilikləri mənimsəyir, çevik olur, tənqidi düşüncəni inkişaf etdirir və yaradıcı fərdi həllər hazırlamaq bacarığını inkişaf etdirir [5, s. 30-106].

Bu üsulların hər birinin özünəməxsus xüsusiyyətləri mövcuddur. Onlardan bəzilərinin xüsusiyyətlərini nəzərdən keçirək:

*Fundamentalist metod.* Bu üsul ifadə etmək, fikir irəli sürmək və ya cavabı əsaslandırmaq bacarığını inkişaf etdirir. Bu metodun mahiyyəti, güclü səbəbləri, tədqiq edilən fikirləri axtarmaqdan ibarətdir. Bu, mahiyyətcə tələbələrdə dərsə inamı gücləndirir, daha güclü, onları daha möhkəm ideyalara bağlayır, məlum bilikləri səfərbər edir, tələbələrin ideyaların mükəmməlliyini dərk etmələrini gücləndirir [7,s.21-26]

*Beyin fırtınası metodu.* Bu metodun məqsədi problemləri həll etmək üçün innovativ yollar tapmaq istiqamətində kollektiv düşüncə fəaliyyətini təşkil etməkdir. Bu üsul diqqəti, zehni səyləri konkret tapşırıqlara cəmləşdirmək bacarığını, həmçinin kollektiv düşünmə fəaliyyəti təcrübəsinin formalaşmasını və kiçik qrupda işləmək bacarığını inkişaf etdirir [8, s. 63-77].

*"Sokratik dialoq" metodu*nda məqsəd idarəetmə məsələsini formalaşdırmaq və alternativ yanaşmaları təhlil etməkdir. Bu üsul öz nöqteyi-nəzərini müdafiə etmək, ictimaiyyət qarşısında danışmaq, eləcə də dinləmək və təfəkkür inkişaf etdirmək bacarığını yaradır.

*"Dəstələr" üsulunda* əsas məqsəd tədqiqatın problemini və məqsədlərini müəyyən etməkdir. Mərkəzi ideyaların (konsepsiyaların) olması düşüncələrin ətrafında cərəyan edən bir döngə yaradır və şaxələnmiş struktur onlara sərbəst şəkildə yayılmağa və inkişaf etməyə imkan verir. Belə struktur – məntiqi metod tapşırığın səliqəli tərtib edilməsinə kömək edir. Bu üsulun mahiyyəti odur ki, bütövlükdə və hissə-hissə görmək qabiliyyətini vurğulamaq üçün tələbələrdə cədvəllər, diaqramlar və illüstrasiyalar qurmaq qabiliyyətini yaradır.

*Layihə üsulu* tələbələrin idrak bacarıqlarının inkişafını, öz biliklərini qurmaq bacarığını, informasiya məkanına naviqasiya etməyi, tənqidi təfəkkürün inkişafını stimullaşdırır. Layihə metodu həmişə müxtəlif üsulların, təlim vasitələrinin istifadəsini, müxtəlif elm sahələrindən bilik və bacarıqların inteqrasiyasını nəzərdə tutan istənilən problemin həllini təklif edir. Layihə üzərində aparılan nəzəri işin nəticəsi- öyrənilən problemin həlli yollarının təqdimatı və praktiki-həyata keçirilməyə hazır olan konkret layihədir. Bu üsul tədqiqat bacarıqlarını inkişaf etdirməyə və təhsil layihələri hazırlamağa imkan verir [10, s. 89-91].

**Problemin aktuallığı.** Ali məktəblərdə tələbələrin idrak fəallığının inkişaf etdirilməsində interaktiv təlim metodlarından istifadəni rolu böyükdür. Məqalə bu baxımdan aktuallıq daşıyır.

**Problemin elmi yeniliyi.** Ali məktəblərdə Azərbaycan tarixinin tədrisində tələbələrdə idrak fəallığının inkişaf etdirilməsində interaktiv təlim metodlarının rolu diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə tələbələrin idrak fəallığının inkişaf etdirilməsində müəllimlərə öz köməyini göstərəcəkdir.

**Ədəbiyyat:**

1. Abbasov A.N. Pedaqogika (müxtəsər konspekt və sxemlər). – Bakı, – 2007, – 80 səh.
2. Cəbrayılov İ. Müasir ali təhsil və tələbə şəxsiyyətinin formalaşdırılmasının bəzi məsələləri // Azərbaycan məktəbi , – 2017 , – №1

3. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs, Pedaqoji universitetlərin və ali pedaqoji məktəblərin tələbələri üçün dərs vəsaiti. – Bakı: Elm və təhsil, 2010. – 464 s.
4. Психология. Словарь / Под ред. А.В. Петровского, М. Г. Ярошевского. – М.: Политиздат, 1990. – 494 с. s. 15
5. Abramova G. A., S. V. A. Business games: theory and organization. – Ekaterinburg: Business book, 2010 – P. 30 – 106.
6. Barnes, L. B., Christensen C. R., Hansen E. J. Teaching method and specific situations: TRANS. angl. Ed. by A. I. Naumov. – M., 2000. – 501 p.
7. Chub E. V. Competence approach in education // Innovations in education. – 2011 – № 3. – P. 21 – 26.
8. Pedagogy and psychology of higher education: a Training manual. – Rostov-on-don: Phoenix, 2012 – P. 63 – 77.
9. Verbitsky A. A. Active learning in higher education: a Context approach:. allowance. – M.: Higher school, 2011. – P. 127 – 130.
10. Educational technology. – Rostov: Publishing center "March", – 2010.


**E-mail:** turann1605@gmail.com
**Rəyçilər:** *ped.ü.fəls.dok., prof.* **İ.H. Cəbrayılov,**
*ped.ü.fəls.dok.* **D.M. Musayev**
**Redaksiyaya daxil olub:** 24.02.2022.